YENİ Yüksəlişə doğru yol!
TƏFƏKKÜR

İŞIQ DAŞIYAN ADAM

Rəfail Vəliyev - 60

İnsanın ömrü yaşla deyil, gördüyü işlərlə ölçülür. Elə insanlar var ki, onların 60 illik həyat yolu bir məktəb, bir örnək, bir dəyər xəzinəsidir. Qəlbi mərhəmət hissi ilə döyünən, ömrünü insanlara xidmətə həsr edən belə dəyərli simalardan biri də bu gün yubileyini qeyd edən Azərbaycan Qızıl Aypara Cəmiyyəti Bərdə rayon bölməsinin sədri hörmətli Rəfail Vəliyevdir.

Rəfail Vəliyev 1966-cı il fevralın 15-də Bərdə rayonunda anadan olub. 1973-cü ildə Bərdə şəhərində 3 saylı tam orta məktəbin birinci sinfinə gedib və 1983-cü ildə oranı müvəffəqiyyətlə bitirib. Sonra hərbi xidmətə çağırılıb. Hərbi xidmətini başa vurandan sonra Moskva şəhərində Ali Polis Akademiyasına daxil olub və orada təhsilini başa vurduqdan sonra Azərbaycana qayıdıb. Uzun illər hüquq-mühafizə orqanlarında çalışaraq vicdanı, ədaləti və prinsipial mövqeyi ilə seçilib. O, xidməti fəaliyyətində qanunun aliliyini qorumağı yalnız vəzifə borcu deyil, həm də mənəvi məsuliyyət hesab edib.

Çətin və məsuliyyətli illər ərzində qazandığı təcrübə, möhkəm xarakter və insanlara həssas yanaşma onun həyat yolunun əsas sütunları olub.

Son 8 ildir fəaliyyətini xeyriyyəçilik və humanizm sahəsində davam etdirərək Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Bərdə rayon bölməsinə rəhbərlik edir.

Onun rəhbərliyi altında bu bölmə rayonun ən fəal və ən çox könüllüsü olan təşkilatlarından birinə çevrilib. Bu, təsadüfi deyil.

Çünki o, insanlara yalnız tapşırıq vermir - onları ruhlandırır, bir amal ətrafında birləşdirir, mərhəmət və paylaşmağın dəyərini öz nümunəsi ilə göstərir.

İmkansız ailələrə göstəriləcək yardımlar, həyata keçirilən sosial layihələr, ehtiyacı olan insanların həyatına gətirilən ümid işığı - bütün bunların arxasında onun yorulmaz əməyi dayanır. O, yardım etməyi sadəcə, maddi dəstək kimi yox, insanın qəlbinə toxunmaq, ona dəyər verdiyini hiss etdirmək kimi anlayır.

Gənclərin sağlam ruhda tərbiyəsi, vətənpərvərlik və humanizm dəyərlərinin aşılanması onun fəaliyyətində xüsusi yer tutur. Könüllülərlə işi sistemli şəkildə quraraq, onlara yalnız təşkilati bacarıqlar deyil, eyni zamanda insani keyfiyyətlər də qazandırır.

Bu gün onun ətrafında toplaşan gənclər gələcəyin mərhəmətli və məsuliyyətli vətəndaşları kimi formalaşırlar.

60 yaş - müdriklik yaşıdır. Bu yaşa zəngin həyat təcrübəsi, təmiz ad, insanların hörməti və xeyir-duası ilə çatmaq isə hər kəsə nəsib olmur.

Onun həyat yolu sübut edir ki, əsl böyüklük vəzifədə deyil, insanlıqda, mərhəmətdə və sədaqətdədir.

Bu əlamətdar yubiley münasibətilə ona möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və başladığı bütün xeyirxah işlərdə yeni uğurlar arzulayıram.

Qoy həyatının növbəti illəri də xeyirxahlıq, uğur və insanların sevgisi ilə müşayiət olunsun.

Təbrik edirik.

✍ Şəmsiyyə Kərimova,
Əməkdar jurnalist